

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti** *1933-cü ildən nəşr olunur*

**№ 86-87 (7323-7324)** ✿ **Çərşənbə axşamı, 1 dekabr 2015-ci il** ✿ **Qəzet ayda 4 dəfə çıxır** ✿ **Qiyməti 40 qəpik**

# Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclasından

## Prezident İlham Əliyev iclasda çıxış etmişdir





Noyabrın 24-də Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev cənab Prezident İlham Əliyevi Milli Məclisdə salamladıqdan sonra ön söz söyləmiş və qeyd etmişdir ki, Milli Məclisə seçkilər azad, ədalətli şəffaf keçirilmişdir. Bu seçkilər möhtərəm Prezident İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasətin böyük qələbəsi olmuşdur.

Səfa Mirzəyev sonra Milli Məclisə seçilmiş deputatları səmimi qəlbdən təbrik etmiş və Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə Milli Məclisin ilk iclasını ən yaşlı deputat aparmasını xatırlatmış və bu şərəfli missiyanın Milli Məclisin deputatı Fəttah Heydərova nəsib olduğunu söyləmişdir. Fəttah Heydərov Milli Məclisin ilk iclasını açıq elan etmiş və salonda Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Sonra Fəttah Heydərov möhtərəm Prezident İlham Əliyevi səmimi qəlbdən salamlamış ona möhkəm cansağlığı, uzun ömür, müstəqil Azərbaycanın və bütövlükdə Azərbaycan xalqının rifahı naminə gördüyü böyük işlərdə, Heydər Əliyev yolunun davam etdirilməsitndə yeni-yeni uğurlar və qələbələr arzulamışdır. Daha sonra Milli Məclisə seçilmiş deputatların siyahısı oxunmuş, hesablayıcı komissiya seçilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək beşinci çağırış Milli Məclisin öz işinə başlaması münasibəti ilə iclasın iştirakçılarını ürəkdən təbrik etmiş və əmin olduğunu bildirmişdir ki, deputatlar ölkəmizin hərtərəfli inkişafına öz dəyərli töhfələrini verəcək, Milli Məclisin işi çox səmərəli olacaq və Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir. Sonra ölkə başçısı nitqində Milli Məclisə seçkilərin tam azad və demokratik şəraitdə keçməsindən, son illərdə ölkənin beynəlxalq nüfuzunun daha da artmasından, iqtisadiyyatımızın dünya miqyasında ən sürətlə inkişaf etməsindən, sabitlik baxımından seçilməsindən, millətlərarası, dinlərarası münasibətlərin ən yüksək səviyyədə həllindən danışmışdır. Cənab ölkə başçısı nitqində eyni zamanda qarşıda duran, həllini gözləyən problemlərə də toxundu. Problemlərin arasında birinci məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsidir. Münaqişəyə hazırki dövrdə real qiymət verən cənab Prezident məsələnin həllində ikili standartlarla üzləşməkdən danışmış, lakin bu real dünyaya prinsipial mövqeyinin davam etməsini xüsusi olaraq vurğulamışdır. Bununla yanaşı iqtisadi islahatların davam etdirilməsi, məcburi köçkünlərin, qaçqınların məişət problemlərinin həlli, energetika, nəqliyyat sektorlarında görülən işlərin sürətləndirilməsi yollarından danşan Prezident əmin olduğunu bildirmişdir ki, Azərbaycanın uğurlu inkişafı böhranlı illər olmasına baxmayaraq bundan sonra da davam etdiriləcəkdir.

Deputatlar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən iclasın sədri Fəttah Heydərov dövlət başçısını əmin etmişdir ki, qarşıya qoyulan bütün məsələlər Milli Məclis tərəfindən uğurla yerinə yetiriləcəkdir.

Sonra Milli Məclisin rəhbər orqanlarının seçkiləri keçirilmişdir. Milli Məclisin sədri vəzifəsinə Oqtay Əsədovun namizədliyi irəli sürülmüş və gizli səsvermə zamanı 124 deputat O. Əsədovun lehinə səs vermiş və Oqtay Əsədov Milli Məclisin sədri seçilmişdir.

Sonra Milli Məclis sədrinin müavinləri seçilmişdir.

Deputat Ziyafət Əsgərov Milli Məclis sədrinin birinci müavini, Bahar Muradova və Valeh Ələsgərov sədrin müavinləri seçilmişlər.

Prezident İlham Əliyev parlamentin sədrini və müavinlərini təbrik etmiş, Milli Məclisin qarşıdakı fəaliyyəti dövründə onlara uğurlar arzulamışdır.

Həmin gün fasilədən sonra Milli Məclisin komitə sədrləri seçilmişdir. Milli Məclisin 15 komitəsindən 4-ü yeni komitə idi.

✿ ✿ ✿

Noyabrın 24-də Konstitusiya Məhkəməsinin Plenumu Mili Məclisə seçkilərin yekunlarının yoxlanması və təsdiq edilməsinə dair məsələyə baxıb və seckilərin nəticələrini təsdiq etmişdir.

**Nadir ATAKİŞİYEV.**